**“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 11, maddə 115; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 7, maddə 486; 2002, 12, maddə 706; 2003, 1, maddə 4; 2004, 2, maddə 57, 4, maddə 202, 7, maddə 507; 2006, 2, maddə 63, 12, maddə 1005; 2007, 5, maddə 437; 2008, 2, maddə 49; 2009, 12, maddə 957; 2011, 12, maddə 1101; 2017, 12 (I kitab), maddə 2199, 2018, 1, maddə 5) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin üçüncü abzasından sonra aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

“Sahibkarlıq fəaliyyəti ilə bağlı statistik məlumatlar emal edilərkən sahibkarlıq subyektlərinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilmiş bölgüsü nəzərə alınır.”.

2. 12-ci maddənin dördüncü abzasına “statistika göstəriciləri” sözlərindən sonra “barədə məlumatlar, həmçinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilən bölgüsü” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 oktyabr 2018-ci il
1270-VQD